Xalq qəzeti 2021.- 14 mart.- S.5.

# Aparılan islahatlar iqtisadiyyatın şaxələndirilməsinə xidmət edir




> *Avropa Yenidənqurma və İnkişaf Bankı ilə son 30 ildə çox güclü tərəfdaşlıq əlaqələri qurmuşuq. Bank ölkənin transformasiyasında, iqtisadiyyatımızın şaxələndirilməsində bizi dəstəkləyib. Bizim 3 milyard avrodan çox məbləğdə layihələrimizin maliyyələşdirilməsi faktı bunu açıq-aşkar nümayiş etdirir. Hazırda bu portfelin yarısının özəl sektora yönəlmiş vəsait olması da mühüm əhəmiyyət kəsb edir. Bu da əməkdaşlığımızın yaxşı göstəricisidir.*
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**

***Azərbaycanla Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) arasında davam edən əməkdaşlıq dövründə respublikamızın bütün sahələrində, o cümlədən, iqtisadiyyatda keyfiyyət dəyişiklikləri baş verib, əsaslı infrastruktur layihələri reallaşdırılıb, sahibkarlığa dövlət dəstəyi gücləndirilib, investisiya mühiti getdikcə yaxşılaşdırılıb.***

AYİB-in Azərbaycana xüsusi marağı heç də təsadüfi deyil. Bu, bir tərəfdən, ölkəmizdə iqtisadi islahatların davamlı xarakter daşıması, əlverişli investisiya mühitinin yaradılması ilə bağlıdırsa, digər tərəfdən, maliyyə sektorunda yeniləşmənin müsbət nəticələri ilə əlaqədardır. Xatırladaq ki, AYİB açıqladığı "2019-2020-ci illər üzrə keçid hesabatı"na əsasən, Azərbaycanda ölkə rəhbərliyinin iradəsi ilə həyata keçirilən islahatların müsbət nəticələri vurğulanıb, inkişafı şərtləndirən amillər qeyd edilib, gələcək dövr üçün proqnozlaşdırılan pozitiv perspektivlər əks olunub.

Hesabatda son illər ölkədə karbohidrogen hasilatından əldə edilən gəlirlərin iqtisadiyyatın digər sektorlarına yönəldilməsinin Azərbaycanda iqtisadi şaxələndirməni gücləndirdiyi və özəl sektorun ümumi inkişafın əsas prioritetlərdən birinə çevrildiyi vurğulanıb. Eyni zamanda, həmin sənəddə maliyyə sektorunda aparılan islahatlar nəticəsində vergi yükünün azaldılması, mikro, kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi xüsusi qeyd edilib.

Son zamanlar maliyyə sektorunda həyata keçirilən islahatlar nəticəsində sözügedən sahədə müşahidə olunan sabitlik və müsbət trendlər də hesabatda öz əksini tapıb. Belə ki, ölkədə kredit verilməsindəki azalmanın 2018-ci ildən dayandığı, ümumi makroiqtisadi sabitləşmə və iqtisadi artımın yenidən başlanması fonunda həmin vaxtdan etibarən nominal nisbətdə artmın nəzərə çarpdığı diqqətə çatdırılıb.

Real sektora kreditlərin ayrılması da intensivləşib. Bu sahədə prosesin sürətləndirilməsi məqsədilə bank sektorunun tənzimlənməsi ilə bağlı mövcud qanunvericiliyə mühüm dəyişikliklər edilib, biznes kreditlərinin risk dərəcələri azaldılıb, məsuliyyətli borclanma vərdişlərinin formalaşdırılmasına, istehlakçıların izafi borclanmasının qarşısının alınması və onların hüquqlarının qorunmasına, habelə bankların öz kapitallarına müvafiq olaraq biznes kreditlərinə daha çox yer ayırmasına şərait yaradılıb. Bununla yanaşı, dövlətimizin başçısının qeyd olunan məsələ ilə bağlı tapşırığının banklarla aktiv kommunikasiya şəklində həyata keçirilməsi üçün respublikada fəaliyyət göstərən istehlakyönümlü bankların iştirakı ilə iclas keçirilib, geniş müzakirələr fonunda prosesin tənzimlənməsi, konkret fəaliyyət istiqamətləri müəyyənləşdirilib, bankların strateji planlarını yenidən gözdən keçirməsi qərara alınıb, biznes kreditlərinin təşviqi məqsədilə banklar tərəfindən kredit yarmarkalarının reallaşdırılması məqsədəuyğun hesab edilib.

Bütün bunlar barədə Azərbaycan Prezidenti İlham Əliyev martın 11-də Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) yeni prezidenti xanım Odil Reno-Bassonu və bankın rəhbərliyinin digər nümayəndələrini videoformatda qəbul edərkən yuxarıda bəhs olunan məsələlərə toxunaraq, son 30 ildə tərəflər arasında güclü əməkdaşlıq əlaqələrinin qurulduğunu xüsusi vurğulayıb. Dövlətimizin başçısı, eyni zamanda, AYİB-in ölkəmizin transformasiyasında, iqtisadiyyatımızın şaxələndirilməsində Azərbaycanı dəstəklədiyini, bu maliyyə qurumu tərəfindən respublikamızın 3 milyard avrodan çox məbləğdə layihələrini maliyyələşdirdiyini diqqətə çatdırıb. Ölkə rəhbəri hazırda sözügedən portfelin yarısının özəl sektora yönəldilən vəsait olduğunu qeyd edib.

Ölkə rəhbəri bankın vəsaiti hesabına Azərbaycanın dövlət şirkətlərinin həyata keçirdikləri infrastruktur layihələrinin bütünlüklə tamamlandığını, AYİB-in ölkəmizin enerji layihələrinə, xüsusilə Cənub Qaz Dəhlizinə, onun sonuncu hissəsi olan TAP-a böyük dəstək göstərdiyini, ötən ilin son günündə isə TAP və Cənub Qaz Dəhlizinin açılışının reallaşdırıldığını xatırladaraq, bunun Avrasiyanın enerji təminatında mühüm rol oynadığını qeyd edib.

Dövlətimizin başçısı daha sonra deyib: "Hazırda bizim əsas məqsədimiz iqtisadiyyatımızın şaxələndirilməsini davam etdirməkdir. Düşünürəm ki, xüsusilə bu il və ötən il, pandemiyaya baxmayaraq, nəticələr çox ümidvericidir. Ümumi daxili məhsulda müəyyən azalmaya baxmayaraq, bizdə qeyri-enerji sənayesi istehsalında artım var. Bu iki ayda bizdə artım 12 faizdən çox olub. Beləliklə, bu, bizim sənayemizin şaxələndirilməsinin yaxşı göstəricisidir. Biz neft satışlarından topladığımız vəsaiti özəl sektoru, sənaye potensialımızı dəstəkləməyə yönəltməyə nail olduq və qeyri-enerji sənayesində 12 faiz artım həqiqətən də əlamətdar hadisədir".

Yeri gəlmişkən, xatırladaq ki, son illərdə iqtisadiyyatın qeyri-neft sektorunun üstün sürətlə inkişafının təmin edilməsinə xüsusi diqqət yetirilir. Real sektorunu sürətli inkişafı istiqamətində hökumət düşünülmüş plan əsasında layihələr gerçəkləşdirir. Bu tədbirlərin həyata keçirilməsi, hətta pandeminin hökm sürdüyü indiki dönəmdə belə qeyri-neft sahələrində yetərli pozitiv nəticələr əldə etməyə imkan verir. Dünya iqtisadiyyatında ciddi geriləmələrin nəzərə çarpdığı və bu səbəbdən Azərbaycan iqtisadiyyatının da müəyyən çətinliklər yaşadığı hazırkı vaxtda iqtisadiyyatımızın real sektorunun qeyri-neft sənayesində 11 faizdən çox artımın qeydə alınması xüsusi bir uğurdur. Bu, ilk növbədə, Azərbaycan Prezidentinin vurğuladığı kimi, hökumətin iqtisadiyyatın şaxələndirilməsi istiqamətində apardığı düzgün siyasətin məntiqi nəticəsidir.

Bu gün Azərbaycanda ən ümdə vəzifələrdən biri iqtisadiyyatın real sektorunun daha üstün inkişafını təmin etməkdən ibarətdir. Bunun üçün ölkəmizin güclü potensialı mövcuddur. Eyni zamanda, son 5 il ərzində iqtisadiyyatın real sektorunun inkişafı istiqamətində bir çox mühüm proqramlar icra edilir. Hazırda ümumi iqtisadiyyatımızın 2/3 hissəsi məhz real sektorun payına düşür.

İndi başlıca vəzifə, işğaldan azad etdiyimiz ərazilərin bərpası, bu ərazilərdə əsaslı iqtisadi mühütün yaradılması və bütövlükdə Azərbaycan iqtisadiyyatının real sektorunun üstün inkişafını reallaşdırmaq məqsədilə xarici və yerli investisiyaların daha böyük həcmdə cəlb olunmasını gerçəkləşdirməkdən ibarətdir. Bu məqsədlə mövcud biznes mühitinin digər ölkələrlə müqayisədə daha da inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılır.

Prezident İlham Əliyev AYİB-in nümayəndələrini videoformatda qəbul edərkən, hazırda Azərbaycanın qarşısında işğaldan azad edilmiş ərazilərin bərpasının əsas vəzifə olduğunu da xatırladıb. Ölkə rəhbəri Ermənistanın 30 il ərzində torpaqlarımızda barbarlıq hərəkətləri törətdiyini, kənd və şəhərlərimizi, infrastrukturu yerləyeksan etdiyini, bunun əcnəbi diplomatların və media nümayəndələrinin viran qoyulan yaşayış sahələrinə səfərləri zamanı şahidi olduqlarını vurğulayıb.

Dövlətimizin başçısı daha sonra bütün bu vandal əməllərə görə bir milyondan çox keçmiş məcburi köçkün üçün layiqli həyat şəraiti təmin etmək məqsədilə 10 min kvadratkilometrdən böyük bir ərazinin yenidən qurulması zərurəti yarandığını bildirib: "Beləliklə, bu, bizim əsas vəzifəmizdir və biz artıq buna başlamışıq. Münaqişənin və müharibənin faktiki sonu olan bəyanatın imzalanmasından yalnız dörd ay keçməsinə baxmayaraq, biz artıq işlərə başlamışıq. Biz indi beynəlxalq hava limanı tikirik, avtomagistrallar tikirik, dəmir yolu xətlərini inşa edirik, artıq başlamışıq. Bu ilin sonuna kimi bütün Qarabağ ərazisi üçün, demək olar ki, enerji təchizatını 100 faiz tamamlamağı planlaşdırırıq və bizim bir çox başqa planlarımız da var".

Azərbaycan Prezidenti qəbul zamanı Qarabağın bərpa-quruculuq işlərinin görülməsində AYİB ilə əməkdaşlığa güvənildiyini, düşməndən təmizlənən torpaqların "yaşıl enerji" zonası elan edildiyini xatırladaraq, həmin ərazilərdə əsasən bərpa olunan enerji mənbələrinə üstünlük veriləcəyinin planlaşdırıldığını da diqqətə çatdırıb: "Bizim böyük beynəlxalq enerji şirkətləri ilə yaxşı iş təcrübəmiz var. Yeri gəlmişkən, Avropa Yenidənqurma və İnkişaf Bankı bu investisiya layihələrinin maliyyələşdirməsində iştirak edir. Ümid edirik, eyni təcrübə azad edilmiş ərazilərdə də tətbiq olunacaqdır. Çünki bərpa olunan enerji mənbələri baxımından orada böyük potensial var".

Qəbulda sözügedən maliyyə qurumunun prezidenti xanım Odil Reno-Basso bildirib ki, ötən il ərzində bank diqqətini özəl sektor üzərində cəmləşdirməklə, kiçik və orta sahibkarlığın dəstəklənməsi, sosial əhəmiyyətli, eyni zamanda, ətraf mühitə təsirlə bağlı yerli valyuta ifadəsində layihələrin icrasına mühüm önəm verib. Bu baxımdan AYİB-in Azərbaycan Mərkəzi Bankı ilə bağladığı SVOP (valyuta mübadiləsi) sazişi, başqa sözlə, yerli valyutada layihələrin maliyyələşdirilməsi sahəsində əməkdaşlıq uğurlu göstəricilərlə nəticələnib. Bu da, ilk növbədə, kiçik və orta sahibkarlığın inkişafına müsbət təsir göstərib.

AYİB-in yeni prezidenti çıxışında, həmçinin Azərbaycan hökuməti ilə külək və Günəş enerjisi sahələrində əməkdaşlıq edildiyini, bununla bağlı hazırlanan qanunvericilik bazasının mühüm önəm daşıdığını vurğulayıb.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***